# RUHUMU OVUDA BİLMİRƏM DAHA



*Xanəli KSSRİMLİ*

## KİŞİLİK BİR ZİRVƏDİR Kİ...

Kişilik bir zirvədir ki, hər erkəyin əli çatmaz,
Kişi olan halalına ömrü boyu haram qatmaz.
Halal gələn bu dünyaya halallıqla yaşayacaq,
Halallıqla yaşayanlar KİŞİ adın daşıyacaq.
Otun, suyun, daşın belə öz kökü var, öz soyu var,
Hər bitkinin, hər ağacın öz çəkisi, öz boyu var.
Öz kökünə, öz adına zatı bütöv dönük çıxmaz,
Bir qarınlıq yalaq üçün bir kimsənin evin yıxmaz.
Bacardıqca əl tutacaq əli əldən üzülənə,
Kasıblıqdan, yoxsulluqdan ilmə-ilmə süzülənə.
Haram tikə yeyənlərsə harınlara qul olurlar,
Namusunu əlindən al, susqun, dinməz, lal olurlar.
Kişilik nə boy-buxunla, nə cah-cəlalla ölçülməz,
Kişilik üzük qaşıdır hər qaşla ölçüyə gəlməz.
Kişi deyil özgəsinin haqqın çalan, haqqın yeyən,
Paçalara sığınaraq özlərinə "kişi" deyən.
Bələləri artır gün-gün həndəsi silsiləsiylə,
Nə Vətənlə maraqlanır, nə Dövləti, Ölkəsiylə...
Harda yağlı tikə görsə, cumurlar ora it kimi,
Sorurlar millətin qanın zəli kimi, ac bit kimi.
Bu millətin qapısında it çanağın yalayırlar,
Məqam düşcək özgələrin qapısında ulayırlar.
Nə Allahdan çəkinirlər, nə millətin qəzəbindən,
Bir-birinə arxa durur bələləri yerbəyerdən.
Basılmaz bir ordu olub nakişlər adı ilə-
Babasıyla, atasıyla, övladıyla, yadı ilə.
Zamanında siçovul tək gizlənirlər deşiklərdə,
Zamanında şeytan kimi üzə çıxırlar hər yerdə.
Leş sökürlər, baş kəsirlər bircə anın içindəcə,
"At oynadıb", "qurd olurlar" Vətənin hər küncündəcə.
Dara düşcək tülkü kimi, tula kimi yalmanırlar,
Şər işlərin, əməllərin "tövbə" edib tez danırlar.
Hər oyundan aydan arı, sudan duru çıxır onlar,
Fürsət düşcək, milyonların evlərini yıxır onlar.
Çörəyini yediyindən danos yazır, dil fırlayır,
Dar ayaqda düşmənin də qurşağını tumarlayır.
Bələləri dönük çıxır anasına, bacısına,
Namusuna-arvadına, öz oğluna, öz qızına.
Tək onların qarnı doysun, cibi dolsun, varı gəlsin,
Süfrəsinin yağı gəlsin, balı gəlsin, narı gəlsin.
Üzlərinə tüpürsən də, qovlasan da qapından sən,
Dürtüləcək yan-böyürdən, ya bacadan, pəncərədən.
Fırıldağın, əyriliyin min yolunu bilir onlar,
Bir çoxu da"dindar" kimi, "hacı" kimi bu milləti fırlayırlar.
Bəziləri, üzdən iraq, "alim" olub ad alırlar,
Akademik adınadək pillə-pillə "ucalırlar".
Gözləri yox heç görməyə şəxsiyyəti olanları,
Qısqırırlar üstlərinə özləritək tulaları.
Əsər yoxdur nə abırdan, nə mənlikdən, şəxsiyyətdən,
Az qalır üz döndərəsən bunlar olan cəmiyyətdən...
... Bəsdi daha, ay oxucum, yordum səni, üzdüm səni.
Bu mövzuda yazdığımçün gəl qınama, vallah, məni.
Bu mətləbi çox uzadıb çək-çevirə salmaq olmur,
Belə çirkin əməllərə biganə də qalmaq olmur...
Oxu bütün tarixləri sətir-sətir, varaq-varaq,
Həqiqətin işığında həqiqəti axtararaq görəssən ki,
Kişi kimi yaşamağın ləzzəti çox, şərəfi çox,
Əvəzində, əzabı çox, ağrısı çox, zilləti çox.
KİŞİLƏRİN dar ayaqda olmasa da bir dayağı,
Çaqqallarla, tülkülərlə bürünsə də solu, sağı,
Ancaq yenə
Həqiqətdir, halallıqdır KİŞİLƏRİN qibləgahı,
Haqq yolundan dönənlərin yox amanı, yox Allahı.
Qaranlıqlar əriyibdir KİŞİLƏRİN ziyasından,
Doğub aydın səhərlər də mərd KİŞİLƏR zəkasından.
KİŞİ kimi yaşayanlar KİŞİ adı daşıyıblar,
Tarixlərin yaddaşında tarix kimi yaşayşblar.

06-07.04.2020.

## SUAL DA ÖZÜNSƏN, CAVAB DA ÖZÜN...

Quş gündə qonsa da min bir budağa
Yenə yuvasında tapır dincliyin.
Vaxtında olmasa odun, ocağın,
Şam kimi əriyib sönər gəncliyin.
Bil ki, yaşamağın və yaşatmağın
Hələ yazılmamış qanunları var.
Sənin taleyinə düşən yazını
Nə yazan əl pozar, nə də ruzigar.
Ümmanlar üzündə üzən qayığıq,
Hansı limandadır son qismətimiz?
Bəlkə də, tufanlı sərt dalğaların
Qoynunda bitəcək aqibətimiz.
Nə zaman bitəcək ömür yolumuz?
Varmı bu sualın cavabın bilən?
Harda qazılacaq son mənzilimiz?
Harda örtüləcək üstümüz görən?
Təpədən dırnağa sualdır ömür,
Cavab tapa-tapa itir ömür-gün.
"Niyə", "nə üçün"lə başlanan həyat
"Niyə", "nə üçün"lə bitir də bir gün
Çalış öz içində axtar özünü,
Sual da özünsən, cavab da özün.
Çox da ümid olma bəxtə, qismətə,
Yaşayan özünsən, yaşadan özün.

09.02.2020.

## OLMADIQ

**Rabindranat Taqor**

Çoxumuz mindik ağ ata,
Ağatlı oğlan olmadıq.
Sürdük atı qürbət elə,
Vətəni yada salmadıq.
Nə bağ saldıq, nə də bostan,
Qoşduq yekə-yekə dastan.
Bizə qaldı quru ad-san,
Ondan da fayda qılmadıq.
Öyünürük keçmiş adla,
Oynayırıq sönmüş odla,
Ha dünəni çağır, yadla...
Vətənə oğul olmadıq.

20.01.2020.

## İNSANA XİTAB...

Mobil telefonlar susub, lallaşıb,
Məzarıstandakı başdaşları tək.
Niyə qorxursunuz, niyə, cənablar,
Qalan qalacaqdır, ölən öləcək.
Bu koronavirus vahiməsindən
Sanki Yer titrəyir yerbəyerindən.
Canının, malının sağlamlığıyçün
Bəşər az qalıb ki, dönə dinindən.
Bu da bir bəladır, gəlibdir göydən,
Bəşər günahının "mükafatı" tək.
Hərə öz cəzasın özü çəkəcək,
Hərə bir növ ilə ölüb gedəcək.
Koronavirusdan kəskin, amansız
Viruslar törəyib iblis insandan.
"Düşünən başların" şərafətindən
Onsuz Yer kürəsi doyubdu qandan.
Çoxdandır pozulub dünyanın halı.
" İnsan" su tək içir insanın qanın.
Nə "Tövrat"ın qalıb xatir-hörməti,
Nə də ki, "İncilin", nə də "Quran"ın.
Bu da bir bəladır - Allah bəlası,
Gəlibdi Yer üzün sala sahmana.
Hərə öz günahın qoya ortaya,
Sığına bir təhər anda-amana.
Qırağa çəkməsin yaxasın heç kəs-
Özümüz gətirdik öz bəlamızı.
Allah sevmədiyi əməlimizlə
Yıxırıq özümüz öz yuvamızı.
Neçə ki, gec deyi, əl götür, İNSAN!..
Haqqın sevmədiyi əməllərindən.
Yoxsa belə getsə, inan və inan
Çıxar Yer kürəsi öz məhvərindən!..

30.03.2020.

## RUHUMU OVUDA BİLMİRƏM DAHA

Ruhmu ovuda bilmirəm daha,
Yalan eşitməkdən doyub, bezibdi.
Sən demə, o, məndən milyon il qabaq
Yeri də, Göyü də gəzib gəlibdi.
Miliyon ildir ki, bu kainatın
Ələk-vələk edib astar-üzünü.
Hələ də ayırib seçə bilməyib
Haqq ilə nahaqqın əyri düzünü.
İnsan cilidində şeytan oğlu şər
Haqqı nahaqq kimi soxub gözlərə.
Miliyon illərdir çarəsiz insan
Haqqı gəzə-gəzə düşüb düzlərə.
Gəzib, getmədiyi yer də qalmadı,
Hələ də görməyib haqqın üzünü.
Vuruşub, doyüşüb, qanlar töksə də,
Tapa bilməyibdi haqqın izini.
... İnsan insanlıqda tapar haqqını,
İnsanlıq ölübsə, ölübdü haqq da.
Ruhumu ovuda bilmirəm daha,
Belə bir zamanda, belə bir vaxtda.

15.02.2020.

## HƏYAT VƏ ZAMAN

Bütün olacaqlar, bütün olmuşlar
uzaq səfərlərin qatarı kimi
bir-bir gəlib keçir ömürdən-gündən.
Ancaq qalır bizim ürəyimizdə
yalnız olacaqlar və olmuşların
qayaya yazılan daş yaddaşı tək
silinməz, pozulmaz çapıq izləri.
O izlər yaşadır keçmişimizi
acılı-şirinli xatirələrlə -
bəzən boğur bizi acı qəhərlə,
bəzən də ovudur qəhqəhələrlə.
Beləcə dövr edir həyat və zaman,
Ömrün son anına, son gününədək.
Başlanır təzədən yeni bir həyat,
Başlanır təzədən yeni gələcək...

01.05.2020.

## AĞRI

...Sağ əlimin üstündə
kiçik nöqtə boynca
qara ləkə yeri var,
qalıb nadincliyimdən
"şirin xatirə kimi".
Görənlər soruşur, maraqlanırlar,
sirri açılmamış möcüzə kimi...
Ancaq bu günədək, bü zamanadək
kimsə soruşmayıb, kimsə görməyib
alnıma vurulan qara möhürtək
Zəngəzur ləkəsi, Təbriz ləkəsi,
Borçalı ləkəsi, Dərbənd ləkəsi,
Qarabağ ləkəsi, Kərkük ləkəsi...
İtən torpaqların bitən ləkəsi-
Bu başı bəlalı VƏTƏN LƏKƏSİ!..

19.04.2020.

## NƏ GÜNƏŞ TÜKƏNİB BİTİB İTƏNDİR, NƏ DƏ Kİ, HAQQ ÜÇÜN DOĞULUB ÖLƏN...

**Albert Kamyu**

"Həqiqət Günəşdir" deyib deyənlər,
Günəşsiz kainat kordur, şikəstdir.
Ancaq ki, Günəşin üzünə baxan
De, hansı kişidir, de, hansı kəsdir?..
Bir kimsə varmı ki, gözün qırpmadan
Beşcə saniyəyə baxsın Günəşə?
Bir kimsə varmı ki, Günəş naminə
Özün bilə-bilə atsın atəşə?..
Günəşdən gizlənir "günəşsevərlər",
Məqamı gələndə, vaxtı gələndə.
Bəzən də Günəşin varlığın danıb
yayınıb yaşarlar dalanda, tində.
Günəş həqiqətdir, həqiqət zəhər,
Kimsə öz xoşuyla içməyib zəhər.
Çox aşiqlər gördüm—haqqın aşiqi
Yaşayıb bir təhər, ölüb bir təhər.
Sən ey həqiqətə qul olan adam,
Həqiqətin yükü ağırdan ağır.
Bu yükün altına girməz "ağıllı",
Dəlisən, dəlitək ha çığır, bağır.
Axır öz səsinə kar olaçaqsan,
Haqq üçün ağlayıb kor olacaqsan,
Yanıb öz içində qor olacaqsan,
Həqiqət gözünə dik baxan adam.
Günəş kainatın tək varlığıdır,
Sənsə həqiqəti deyən tək adam,
Hər dəfə təzədən doğulur Günəş,
Hər dəfə haqq deyən təzə bir adam.
Nə Günəş tükənib bitib itəndir,
Nə də ki, haqq üçün doğulub ölən.
Əzəldən yaranış belə yaranıb
Kimsə yox bu sirrin sirrini bilən.
Həqiqət axtarır hərə bir cürə,
Həqiqət nə göydə, nə də yerdədir.
Həqiqət insanın düşüncəsində,
Həqiqət insanın öz içindədir.
Neçə ki, qarışıb qan qana, itib
həqiqət deyilən Haqqın işığı.
Əgər dərk etdiyin həqiqət varsa,
Özünü çox üzmə, ey haqq aşığı...

02.05.2020.